MƏHMƏD NİYAZİ

# MÖVCUDLUQ MÜBARİZƏSİ

II NƏŞR

# Məhməd Niyazi
# Mövcudluq mübarizəsi

*http://www.litres.ru/pages/biblio_book/?art=68475148*


## Аннотация

Anası onu atasının əziz xatirəsi üçün nəyin bahasına olur-olsun, uzaq dağ kəndindən İstanbula təhsil almağa göndərmək qərarını verib. Utancaq və ədəbli uşaq olan Murad isə oxuyub millətinə, ölkəsinə faydalı olmaq üçün müəllim olmağı seçib. Amma həyatın gözlənilməz sürprizləri hələ qarşıdadır. Murad mövcudluq mübarizəsindəki yerini dərk etməklə hansı zəfər və məhrumiyyətlərə hazırdır? Bu kitab idealist bir gəncin – inandığı dəyərləri bəşəriyyətə hayqıran əzmli bir insanın hekayəsidir.

**MƏHMƏD NİYAZİ**

**Mövcudluq mübarizəsi**

**roman**

– Ay Murad, heey!

Nəfəs almadan qulaq asdı, qarşıdakı təpələrdə əks-səda verən “Ay Murad, heey” səsindən başqa bir şey eşitmədi. Deməli, yaxınlıqda deyildi. Qaçmağa başladı. Ətrafı çiskinli duman bürümüşdü, göz-gözü görmürdü. Ancaq evə qayıda bilməzdi. Murad səhər heyvanlarla çıxmışdı.

Dərəyə enərkən özünü gedər-gəlməz dünyaya düşürmüş kimi hiss etdi, duman burda qat-qat olmuşdu. Qaranlıq düşmədən Muradı çağırmalıydı. Dayandı, əks-səda verən səsi ruhunu titrətdi.

Titrəyişlər Anadolu qadınının qismətiydi. Uşaqlığını dadmayan, titrəyişlər arasındakı gənc qız… Gəncliyini yaşamayan qadın, ana… Cəbhədə toplar partlayarkən də titrəyirdi; gün gəldi, polad lülələr susdu, amma heyf ki, onun titrəyişləri dayanmadı…

Fadimə bacı da onlardan biriydi. Üstəlik, atasını çox kiçik yaşlarında itirmişdi. “Ata” kəlməsi salxım söyüdlə bir ovuc qara torpağı gözünün önünə gətirirdi.

Anası dayısının yanına köçmüşdü, çünki sonra gənc qadının ərsiz, tək yaşaması qonşuların dilinə düşə bilərdi. Yad qapılarda cəhənnəm əzabı çəkdi. Hələ özünü şəxsiyyət kimi formalaşdırmamış onu dayısının qonşusu Çoluğun Yusifə verdilər. Əl birliyi ilə, göz yaşları ilə getdiyi Yusifə qısa zamanda

alışdı. Yusif əsl kişiydi; yaxşı və pis xüsusiyyətləri təkcə ona aid deyildi, bütün kişilərin ortaq xüsusiyyəti idi. Xoşbəxtdilər – dolanışığa çatacaq torpaqları, üçotaqlı evləri, bir baş öküzləri vardı. İşləyib gül kimi dolanırdılar. Günlərin bir günü Murad dünyaya gəldi. Murad onlar üçün ayrı bir xoşbəxtlik mənbəyi idi, ən bədbin hallarında belə, sevinci onda tapırdılar.

Xoşbəxt günlər Fadimə bacının ömründə fevral günəşi kimi qısa sürdü. Malyariya xəstəliyi yayın istisində Yusifi qovurub atasının yanına apardı, salxım söyüd kəhrəba sarısı yarpaqlarını hər ikisinin üstünə tökdü. Əbədi yasa bürünən gənc simasına kədər cizgiləri çökdü. Hələ çox gəncdi, ətrafdan istəyənlər də vardı, ancaq Yusifinin yatağına kimi sala bilərdi ki?! Namusuyla bütün çətinliklərə qatlanaraq yaşamağı onu kəndin "bacı"sı etmişdi.

Bu fani dünyada Muradıyla qalmışdı. Ona görə yaşayır, ürəyi onun üçün döyünürdü. Bəs hal-hazırda qalxan duman topası Muradı harda və necə gizlədirdi?

– Ay Murad, heey!

Dinlədi, səsinin sədasına bir qırıq səsin qatıldığını hiss etdi. Ümidlənməsiylə səsi bir az da gurlaşdı.

– Ay Murad, heey!

Bu dəfə Muradın səsini eşitdi. Səs gələn tərəfə qaçmağa başladı. Təngnəfəs təpəni dönərkən çuxurda otlayan heyvanları, əlindəki çomaqla Qarabaşın quyruğunu sıxıb mırıldadan Muradı görəndə qorxuları yox oldu, yavaşıdı.

Qarabaş quyruğunu yelləyərək gözlərini təpəyə tərəf zillədi.

Murad başını çevirəndə anasının yamacdan düşdüyünü gördü. Ayağa qalxdı. On-on bir yaşı olardı. Əllərini dəyənəyin ucunda birləşdirib anasına baxdı.

– Yenə nə olub?

Fadimə bacı yaxınlaşdı. Murad artıq dözmədi:

– Ana, nə olub?

Qırıq-qırıq səslə:

– Heç nə, oğlum, – dedi, – duman çökdü, dağlar, daşlar görünməz oldu. Yağış çiskinləməyə başladı. Arxanca gəldim. Bir də nə vaxt duman olsa, evə qayıt, məni nigaran qoyma.

– Duman birdən-birə çökdü. Azaram deyə, qorxdum. Heyvanlarla olduğum yerdə qaldım.

Yanına gəlib, dərindən nəfəs alaraq bir əliylə Muradın başını sığalladı.

– Heyvanları buraxsaydın, evin yolunu tutardılar. Çox qorxdun?

– Yox, ana, heyvanlar var. Elə hey Qarabaşı dürtmələdim. Hürəndə səsi vadiyə yayılır.

Qatı dumanın arasından günəş gah görünür, gah da itirdi. Fadimə bacı heyvanlara baxdı, hələ doymamışdılar. Başındakı yaylığı yerə sərdi, ana və oğul üstünə oturdular.

Fadimə bacı gözlərini heyvanlarda gəzdirdi: zəif idilər, qışdan təzə çıxmışdılar, bəlkə, südləri bir az artardı. Görəsən, yağ, pendir düzəldib bazarda satsaydı, ayın-oyun aldıqdan sonra Murad üçün də bir-iki qəpik artıra bilərdimi?! Bəzən keçmişi düşünür, kədərli günlərini xatırlayırdı. Muradın yanında

duyğulanmaq istəmədiyi üçün baxışlarını heyvanlarda gəzdirir, fikrini onlarla dağıdırdı.

Üfüqlər açılır, günəş təpənin arxasında batmağa hazırlaşır, çobanlar qoyunlarını kəndə tərəf aparırdılar.

– Qalx, oğlum, gedək.

Kəndin ətəyindəki qəbiristanlığa gəlib çatanda Fadimə bacı:

– Sən heyvanlarla get, – dedi.

Məzarları tapdamamaq üçün diqqətlə yeriyirdi. O qəbirlərdə nə qədər sevgi, fəryad, nazlı yaşlar basdırılmışdı. Kürəyini söyüdə söykəyən kimi onu ağlamaq tutdu.

Rahatlaşdı. “Fatihə” surəsini ağır-ağır bir dəfə də oxudu, əllərini üzünə sürtdü. Torpağı ovuclayıb ətrini içinə çəkdi: Yusifinin ətri hələ canlı, hələ diriydi. Qara yaylığının ucuyla kirpiklərində qalan yaşı quruladı.

* * *

Fadimə bacı gün çıxmamış qalxdı. Yaradanına şükür etdi. Duasında Yusifə və atasına rəhmət diləməyi unutmadı.

Bir parça çörəklə şoru boğçaya bükdü: bunun üçün süfrə əvəzi köhnə pərdədən istifadə etdi. Otağa qayıdanda Muradın üstü açılmışdı, arıq ayaqlarını kollar cızmışdı. Mərhəmətlə Muradına baxdı. “Ey fani dünya!” – deyə heyfsiləndi. İslanmış göz qapaqlarına yüngül bir istilik yayıldı. Bu kiçik bədən nə vaxt böyüyüb onu qanadlarının altına alacaqdı?! Qaşlarının çatmalığı, üzündəki qaralıq necə də Yusifi xatırladırdı…

– Murad, qalx, oğlum. Evdə bir biz qaldıq.

Fadimə bacı heyvanları tövlədən çıxardı. Pərdəyə bükdüyü

çörəklə şoru Muradın qoltuğuna qoydu. Evə girdi, boğçanı götürdü. Belinə orağı saldı. Qapını kilidləyəndən sonra itələyərək yoxladı. Güyümünü çiyninə salaraq tarlanın yoluna düzəldi.

* * *

Günəş qızmadan iş görməyə çalışırdı. Beli ikiqat idi, qabarlı ovuclarıyla sünbülləri toplayıb orağını yellədirdi. Beli ağrımağa başlayanda düzəlib ətrafa göz gəzdirirdi, naməhrəm olmadığını görüb baş örtüyünü açır, üzünü qurulayırdı. Qarşıdakı yamaclarda iməcilikləri görür, hənirtiləri eşidirdi. Cərgədə olmadığı üçün iməcilik etmirdi, dul qadın idi, dünyanın min cür işi vardı.

Günortanın istisi düşəndə kölgəyə çəkildi. Dəstəmazı təzələyib namazını qıldı. “Amin” deyərkən quşların səsi arasında Allaha yalvardı. Boğçasını açdı, amma loxmalar boğazından güclə keçirdi. Yusifinin yoxluğunu bu anlarda daha çox hiss edirdi. Neçə mövsüm onunla belə buğda biçmişdilər! Bu ağacın altında bir tikəni bölüşmüşdülər. İndisə…

Dərin sükuta qərq olmuş təpələrdə, dağlarda baxışlarını gəzdirərkən, içdən tənhalığını hiss edirdi. Bir Muradcığı vardı… Onu da Yusifinin vəsiyyətinə uyub qürbətə göndərmək istəyirdi. Tənhalığı artacaqdı… ancaq kaş bacaraydı!..

Gözlərini günəşə çevirdi: “Vaxtdır” – deyib yerindən qalxdı, tarlaya girdi və canfəşanlıqla biçməyə başladı.

Bəzən içinə narahatlıq çökür, bəzən də qəlbi sevinclə dolur, incə səsiylə nəğmə oxuyurdu:

Qara qoyun quzulu
Qara dağa düzülüb.
Nələr gəldi bu başa,
Nələr daha yazılıb?

Ruha toxunan yumşaq, hüznlü səsi quru buğda sünbülləri arasına süzülürdü.

* * *

İllərdi vərdiş etdiyi bu heyvanlardan necə ayrılacaqdı? Yusifin sağlığında buzov idilər. Artıq böyümüş, illərlə dağda, yamacda, tarlada ona yoldaşlıq etmişdilər. Başqaları da böyümüşdü, işini görürdülər. Ancaq bunlara öyrəşmişdi, necə edəcəkdi? Arxaya dönüb baxdı:

– Sür, Murad.

Murad dəyənəyi vuraraq “ohaaa” deyə bağırırdı, öküzlər sürətlənir, noxtaları əlində tutan Fadimə bacı qaçırdı. Yiyəsiz dərələrdən keçib təpələri aşırdılar.

Günortanın istisində bazara gəlib çatdılar. Geniş meydan başdan-ayağa doluydu. Fadimə bacı arxın kənarında kürəyini insan izdihamına çevirib dayanmış, Muradsa dəyənəyinə söykənib insanlara, heyvanlara baxırdı. İndiyədək bu qədər insanı bir yerdə görməmişdi. Səslərin arasında şimşək kimi çaxan “Qazlı su!”, Halva!” çığırtıları da onu təəccübləndirirdi.

Fadimə bacı həyəcanlanmağa başladı, görəsən, sata biləcəkdimi? Kişisiz arvad olmaq necə də pisdi, bir mənada dünyadan qopmaqdı.

Ağsaqqal, qara beretli bir qoca öküzlərə yaxınlaşdı. Alıcı

gözü ilə baxırdı, amma Fadimə bacının duruşu cəsarətini qırır, narahat etmək istəmirdi. Muradın da orda olduğunu görəndə ona yaxınlaşdı:

– Övlad. Bu öküzlər sizindir?

Fadimə bacıya da eşitdirmək üçün səsini yüksəltmişdi.

– Bizimdi.

– Satılıqdır?

Murad başını yelləyərək Fadimə bacıya tərəf baxdı.

– Qızım, bir qüsurları var?

– Yox, əmi.

– Təmiz adama oxşayırsan, qızım, neçəyədir?

Fadimə bacı qızardı, amma nəsə deməliydi. Qiyməti də təxmin edildiyindən az idi. Səsində narahatlıq vardı.

– Əmi, mən qadın xeylağıyam, qiymət bilmirəm. Bu yetimə görə satıram.

Qocanın baxışları dəyişdi, gözlərində mərhəmət parıldadı.

– Mən də təxmin edə bilmərəm. İki çoban gətirib qiymətləndirək. Yetimin haqqını yemək istəmərəm, onsuz da ayağımın biri gordadı.

Fadimə bacının gözlərinə işıq gəldi. Çox keçmədən qoca iki adamla gəlib-çıxdı.

– Budur öküzlər. Bu qadın duldur, uşaqsa yetim; mən də qoca adamam, bir ayağım burda, bir ayağım gorda. Sizə həvalə edirəm.

Biri noxtaları əlinə alıb çəkməyə başladı. Digəri öküzləri dürtməklədi, yerişlərində bir qüsur yox idi. Dayandılar, arxadakı

adam öküzlərin dişlərini yoxladı, qasıqlarına əl atdı, ayaqlarını qaldırıb baxdıqdan sonra qocaya tərəf döndü. Gözünün birini qırparaq dedi:

– Günahdan qaçıram. Mən min iki yüz əlli lirəyə satın alaram.

Noxtaları əlində tutan adam da:

– Əhməd ağa düz deyir, – dedi, – bundan artıq olmaz.

Qoca, Fadimə bacıya dönüb:

– Nə deyirsən, qızım? – soruşdu.

Fadimə bacı başını yellədi, qoca “Bismillah” deyib jiletinin düymələrini açdı. Min üç yüz lirəni uzatdı.

– Bu belə, qızım. Əlli lirə də məndən. Halal xoşun!

“Yetimdi, sevinsin”– deyərək, beş lirə də Muradın ovcuna basdı, çünki şirinlik törədəndi.

Murad sevinirdi, indiyə qədər heç kağız pulu olmamışdı. Qocanın üzü uzun müddət gözlərinin önündən getmədi.

* * *

Bazara gəldilər. Hökumət malikanəsinin yanında rəhmətlik Yusifin dostu – məhkəmə vəkili Lütfü əfəndinin kontoru vardı. Fadimə bacı ona baş çəkməyi, onunla məsləhətləşməyi evdə planlaşdırmışdı. Yusifin yaxınlarından pislik görməzdilər. Yusifin yolu rayona düşəndə vəkilin yanına əliboş getməzdi: bir az yağ, şor, ən azından meyvə götürərdi. Hər kəndlinin qəsəbədə özünə görə dostu olurdu, “Gün gələr, insan hökümət qapısına düşər” – deyirdilər. Kəndli adam necə yol tapıb ordan çıxsın ki?

Lütfü əfəndi alt dodağından sallanan sönük, islanmış siqaretini tərpədərək lövhələrdə silinmiş hərfləri seçməyə

çalışırdı. Fadimə bacı Muradla içəri girib, asta səslə:

– İşiniz irəli, əmi, – dedi.

Eynəyini düzəldən Lütfü əfəndinin baxışlarından tanımadığını başa düşdü.

– Yusifin külfətiyəm.

– Hansı Yusifin, qızım?

– Təpəköydən.

– Həə! Xoş gəlmisiz, outrun!

Oturacağa əyləşdilər.

– Qızım, vacib bir sənəd yazıram. Bir az səbir edin, danışarıq.

Xeyli vaxt keçəndən sonra, Lütfü əfəndi arıq sümüklü barmaqlarıyla yazı makinasının pərini çevirdi. Burnunun ucuna doğru sürüşən eynəyini düzəltdi. Yazdıqlarını yavaş-yavaş oxudu. “Bu iş hazırdı”– deyərək kağızı masaya qoydu, gözlüklərini çıxartdı.

– Danış, görüm, qızım. Necədir vəziyyətin? Dolanışığınız necədir?

– Sağlığına dua edirik.

– Ah, Yusif, necə oğlan idi! Gənc yaşda köçdü həyatdan. Qismət. Allah nə yazıbsa, o olar. Bu oğlan sizindi?

Baxışlarını aşağı əyən Fadimə bacı qızardı. Pıçıldayaraq cavab verdi:

– Allah saxlasa.

– İnşallah, qızım. Sifəti necə də Yusifə oxşayır. Məktəbə gedirmi?

Fadimə bacı yenə qızardı, səsi də qayğılı bir hal aldı. Heyf,

çarəsizdi.

– Sənin yanına gəlişimin səbəbi budur. İbtidai sinfi bitirib. Oxuması üçün rəhmətlik vəsiyyət edib. Biz kasıb adamlarıq. Deyirlər, İstanbulda İmam-Xətib məktəbi var. Kəndimizin müəllimi ora qeydiyyata düşməyimizi tövsiyyə etdi. Pulsuzdu.

– Uşağın biliyi var? Hər uşağı ora götürmürlər.

– Müəllimi keçəcəyini deyir.

Lütfü əfəndi, "Nə edə bilərəm?"– deyə düşündü. Yusifin yadigarı olan bu uşağa kömək etmək istəyirdi.

Anasına yapışmış Muradın işıldayan gözlərinə baxdı. Ürəyində hərarətli duyğular baş qaldırdı. Dodağındakı yaş, sönmüş siqareti atdı.

– İmam-Xətib məktəbinə ərizə yazım. Məktəbə kömək edən cəmiyyətin idarə heyətində bir əsgər yoldaşım işləyir. Müraciətimizlə maraqlanması üçün ona da bir ayrı məktub yazaram. Əgər qismətdə varsa, alınacaq.

Siyirməsindən çıxartdığı kağızı yazı makinasına yerləşdirdi, nazik boynunu uzadıb yazmağa başladı. İkinci kağızı yerləşdirdi. Sonra zərflərin üstünü yazdı. Kağızları zərfə qoyaraq səliqə ilə bağladı.

– Öz ünvanımı yazdım. Qəbul haqda cavab gəlsə, kəndə göndərərəm. Bir xəbər çıxmasa da, nə edə bilərik, qızım…

Zərfləri Fadimə bacıya verdi.

– Bunları yubanmadan poçtla göndər. Birdən poçtu tanımazsan?

Özü də çölə çıxıb, əliylə işarə etdi:

– Bax, bu sarı bina.

– Sağlıqla qal, əmi.

Fadimə bacı əli irigüllü, damalı yubkasının içində, şübhəli addımlarla yeriyir, Murad sağa-sola baxaraq anasının arxasınca gedirdi. Lütfü əfəndi arxalarınca baxıb başını ümidsizcəsinə yelləyərək, "İnşallah"– dedi.

* * *

Fadimə bacı sirrini Muradın oxumasını istəyən, ona yol göstərən müəllimindən də gizlədirdi. Dul olaraq nəyinə güvənib oğlunu oxutmaq istəyirdi?! Biri eşitsə, kəndə yayılar, insanı lağa qoyub, ləqəb qoşardılar. Bu, onu məzara göndərməkdən daha betər idi. Murada da ilişəcəklərindən qorxurdu. Belə gülünc ləqəblər oğuldan-oğula nəsillər boyu uzanıb getmirdimi?!

Rayondan gələnlərə həyəcanla baxır, ancaq nəyisə gözlədiyini hiss etdirməmək, diqqət çəkməmək üçün özünü o yerə qoymurdu. Günlər keçirdi, nə məktub, nə də bir xəbər gəlirdi. Bədbin fikirlərə dalırdı… Məktubu alan adam, bəlkə, içindəkini oxuyub, sonra cırıb atmışdı?! Kənd yeridi, heç kimin gözü bir-birini götürmürdü. Hələ dul qadının uşağının irəli getməsini kim istəyərdi ki?

Rayona gedib Lütfü əfəndini görməyi düşünürdü. Ancaq heyf ki, işləri çox idi. Qış uzaqda deyildi, artıq qardan əvvəlki səhər qırovları düşməyə başlamışdı. Qar Təpəköyə yağanda dayanmaq bilmirdi. Üst-üstə yağır, aprel ayına qədər hər yer ağappaq olurdu.

İşa namazından sonra əllərini göyə açdı: "Rəbbim, sən

utandırma. Bizi ərlərimizə itaət üçün yaratdın. Fağırıq, bu qapını bağlasan, Murad oxumayacaq. Yusifin əhdini yerinə yetirməmiş olacam. Məni günahakar qullarından etmə" – deyib əllərini üzünə çəkəndə bir neçə damla yaş ovuclarını islatdı.

* * *

Meşədə quru odunları arabaya yüklədi. Öküzlərin noxtaları Muradın əlindəydi. Fadimə bacı həm dəyənəyi ilə öküzləri dürtməkləyir, həm də təhlükəli yerlərdə arabanı tuturdu. Yamaclarda arabanın bir və ya iki təkərini bağlayır, toz buludu ilə düşürdülər.

Kəndin girəcəyinə çatanda Murad qapılarının qarşısında bir jandarmın durduğunu gördü. "Nə oldu, görəsən?" qorxusuyla kürəyini boyunduruğa dayayaraq:

– Oha, oha, – dedi və arxada qalan anasına tərəf döndü.

– Niyə dayandın?

– Qapıda jandarm var!

Fadimə bacı vəziyyəti anlamaq üçün gecikmədi.

– Sən arabanı sür, gəl.

Qaçarkən, sanki ürəyi yerindən çıxacaqdı. Yaxınlaşanda yavaşıdı, tez-tez nəfəs alaraq yaylığını düzəltdi.

– Jandarm bəy, xeyir ola?

– Bir iş üçün bu kəndə gəlmişəm. Məhkəmə vəkili Lütfü əfəndi bir məktub göndərib. Yusifin arvadı Fadiməyə çatacaq.

– Mənəm.

Cibindən məktubu çıxarıb verdi.

– Allah amanında.

İçi-içinə sığmayan Fadimə bacı tez məktubu açıb, oxutmaq istəyirdi. Həyəcanına rəğmən bir bəhanə tapdı:

– Qardaş, yorğunsan, bir ayran verim, iç.

Jandarma geri qayıtdı.

– Yaxşı olardı, bacı.

Evə girdi, səhər çalxaladığı ayrandan tasa tökəndə ağlında bu sözlər fırlanırdı: “Görəsən, nə yazılıb?”

Ayranı içən jandarma “Allah amanında” deməyə imkan vermədən məktubu uzatdı.

– Nə yazıldığını oxuya bilərsən?

Jandarm zərfi cırdı, əvvəlcə sakitcə gözlərini gəzdirdi, məktubu Fadimə bacıya verəndə də:

– Oğlunuz İstanbul İmam-Xətib məktəbinə müraciət edib, – dedi, – qəbul olunub, sentyabr ayının iyirmi dördündə İstanbulda olmalıdı. Haydı, salamat qalın.

Sevincindən başını itirdi; nə deyəcəyini, nə edəcəyini bilmədi. Arabanı qapıya gətirən Muradın çiyinlərindən tutub silkələdi:

– Alındı, oğlum, Allah üzümüzə baxdı, səni məktəbə qəbul etdilər, – dedi.

Gözləri gülən Murad necə reaksiya verəcəyini bilmədi, ancaq bir azdan anasının sevincinə qoşuldu. Fadimə bacının həyəcanı azalası deyildi. Öküzləri tövləyə bağlayanda: “Bir dəfə də müəlliminə oxudum, artıq ziyanı olmaz, dəqiq olsun. Jandarm, bəlkə, səhv oxuyub. Yox, canım, niyə səhv oxusun ki? Yenə də oxudum” – deyə öz-özünə danışırdı.

Müəllim məktəbin bağçasındakı söyüdün kölgəsinə oturacaq

qoyub əyləşmiş, axşamın ılıq küləyinin dadını çıxarırdı. Fadimə bacını və Muradı görəndə gülümsədi. Başını aşağı salıb namusuyla, öz halal zəhmətilə yaşayan Fadimə bacıya hörmət edirdi. Muradı da sevirdi. Yaşına görə ağırtəbiətli, sinfinin ən fəal şagirdi idi.

– Nədir o, Fadimə bacı?

Qadın əlindəki məktubu uzatdı. Murad utandığından anasının arxasında dayanmışdı. Müəllimi məktuba bir az baxdıqdan sonra sevincindən qəhqəhə çəkdi.

– Fadimə bacı, “Qərib quşun yuvasını Allah qurar” deyiblər. Muradı İmam-Xətib məktəbinə qəbul ediblər. Sentyabr ayının iyirmi dördündə orda olmalıdır. Nəbadə gecikməyin.

Müəllim oturacaqdan qalxdı. Anasının arxasında gizlənən Muradın çiyinlərindən tutdu.

– Bax, işlə haa. Ananın rahatlığını təmin et. Vətənə, xalqa xidmət et, məni də unutma, yaxşı?

Muradın tərli yanaqlarından öpdü.

* * *

Xəbər tezliklə bütün kəndə yayıldı. Kimlərsə Fadimə bacını tərifləyirdi: “Qadın belə olar. Gənc yaşında dul qalsa da, nə namusuna söz gətirdi, nə işini düzdə buraxdı. Oğlunu oxutmağa çalışır. Bacardı da… Muradı getdikdən sonra əli qoynunda qalacaq, bunu da gözə alıb”. Paxıllar da az deyildi: “Bu qadın uşağı nə ilə oxudacaq? Camaatı özünə güldürəcək!” – deyənlər də vardı.

İşlər azaldığından üç gündü ki, “Kənd otağı” açılmışdı.

Bu axşam alaqdan, toxumdan, əsgərlikdən danışan olmadı. Yusifdən, Fadimə bacıdan, Muraddan danışdılar.

Qoca Molla İbrahim titrək barmaqları ilə tütün qabından çıxardığı tütünü bükərək:

– Səksən üç yaşımı gilas ayında tamamladım, – dedi, – hərb gördüm, zərbə gördüm, nə yalan söyləyim, Allahın bildiyini bəndədən nə gizlədim? Fadimə bacının bacardığı mənim əlimdən gəlməz.

Qapının arxasında oturan Yaqub Veysəl, Molla İbrahimin nə demək istədiyini anlamışdı. Guya heç nədən xəbəri yoxmuş kimi soruşdu:

– Nə edib ki, Fadimə bacı?

– Nə edəcək?! Qadın oğlunu məktəbə qoydu. Hansımız etmişik? Ağlımızın ucundan belə keçməyib. Bir məmur görən kimi bu boyda saqqalla qarşısında az qala əyilmiş vəziyyət alırıq. Övladlarımız da belədi, nəvələrimiz də belə olacaq.

– Narahat olma, İbrahim əmi, oxuda bilməz! Oxutmaq asandı? Pul lazımdı bununçün, Fadimə bacıda hardandı bu güc? Həvəsdi də, başlayıb, sabah sönüb yarımçıq qalacaq.

Molla İbrahim başını yellədi, ağ hörmə fəsinin altında qəzəblə qaşlarını çatdı.

– Veysəl, Veysəl! Oxuyacağı üçün narahat olmuram, sevinirəm. Eşitdiyimə görə, məktəb pulsuzdur. Yeməyi, içməyi məktəb verəndən sonra nə var ki?

– Təbilin səsi uzaqdan xoş gəlir. Kitab, dəftər, zir-zibil pulu, bunların hamısına yenə də güc lazımdı. Dul qadında o güc

hardandı?! Uşaq da axmağın biri, oxumaz.

– Eh, ay Veysəl! Bax, elə bu qonşu arasındakı paxıllıqdı da bizi bu hallara salan. Kimsə xeyirli bir iş edirsə, başqası onu yıxmağı özünə vəzifə bilir. Uşaqlığımda kənd necəydisə, indi də elədi. Nə olar ki, bizlərdən də bir adam çıxsa… Pis olar?

– O vaxta qədər kim ölə, kim qala…

Molla İbrahim siqaretindən bir qullab alıb, qalın tüstünü burun deşiklərindən buraxırdı.

– Oğul, gün dediyin nədir ki, gəlib keçər, xəbərin olmaz. Yaşadığım səksən üç il indi mənə kibrit çöpünün yanması qədər qısa gəlir. Biz görməsək də, oğullarımız, nəvələrimiz, kəndimiz görəcək. Bunların heç biri görməsə, Məhəmməd ümmətindən kimsə görər.

Ona kömək etməliyik ki, heş olmasa, edəcəyi savablardan bir azı da bizim məzarımıza çatsın.

– Oxuya bilməz, İbrahim əmi!

Molla İbrahim əsəbiləşdi.

– Niyə oxumur?! Oxuyanın buynuzu olur?

* * *

Hüznlü günorta günəşi yumşaq şüaları ilə Təpəköyün dağını, daşını işıqlandırır, qış yuxusuna hazırlaşan təbiət gündən-günə rəng dəyişirdi. Evinin üçpilləli pilləkənində oturub torba tikən Fadimə bacı da payızın hüznündən təsirlənmişdi. Müxtəlif fikirlər arasında əlindəki kolenkoru dizlərinə qoyub qarışla enini, uzunluğunu ölçür, dolu halını hazırlamağa çalışırdı. Muradın alt paltarlarını onun içinə qoyacaqdı.

– İşin irəli, ay bacı.

Başını qaldıranda qarşısında Yaqubun Veysəlini gördü.

– Sağ ol, Veysəl qardaş.

– Məktəb hazırlığı görürsən, yəqin?

– Belə də, əlimdən gələni.

– İndiki zamanda uşaq oxutmaq çətindi, necə başa çıxacaqsan? Həm də tək qalacaqsan.

– Rəhmətliyin vəsiyyətidir, nə edim? Hər şeyə dözməliyəm. Rəhmətliyin gedişi ilə qadınlığımız bitmədi ki!

– Allah köməyin olsun! Aran tarlanı satacağını eşitdim. Tarlamın kənarındadı, mənə münasib yerdi.

Yaqubun Veysəlinin bu yerdə gözü vardı. Həm geniş və düz, həm də kəndin ən məhsuldar tarlasıydı. Fadimə bacı buğdasının çoxunu ordan götürürdü.

– Yox, Veysəl qardaş, "tarlalarıma, evimə toxunmayın" – deyə rəhmətlik son günlərində tez-tez söyləyərdi. Ora necə əl vura bilərəm?

Yusif də hər Anadolu insanı kimi torpağına bərk-bərk bağlıydı, ən ağır vəziyyətlərdə belə, onu düşünürdü. Cahillik ucbatından gözəl tarlalar satılardısa, sonra uşaqların halı necə olardı?

– Necə istəyirsən, bacı, satsan mənə xəbər etməyi unutma.

– Sağlıqla qal, Veysəl qardaş.

* * *

Sübh tezdən camışların yeməsi üçün axşamdan qabaqlarına ot-əncər qoydu. Molla İbrahimin oğlu Süleymanla tezdən yola

çıxacaqdılar, Fadimə bacı rayondan araba ilə geri qayıdacaqdı.

Qış yaxınlaşanda Anadolunun bir çox insanları kimi Süleyman da işləmək üçün qürbətə gedirdi. Molla İbrahim təmiz qəlbli, nurlu bir insan idi, oğlu Süleyman da ona oxşayırdı. Bu qarşılaşmaya Fadimə bacı çox sevinmişdi. Murad hələ balaca idi, yol-yolağa bilmirdi, yəqin, məktəbini tapmazdı. Bu boyda İstanbula onu necə göndərəcəkdi?

Muradın əlindən tutub gedir – hardan getdiyini, hara gəldiyini bilmirdi. Qorxdu, geriyə qayıtmaq istədi, lakin dayana bilmədi. Murad sakit idi, onunla danışsa sakitləşəcəkdi, çox heyf ki, səsi gəlmirdi. Qəbiristanlıqdakı salxım söyüdün yarpaqlarının alışdığını gördü. Yaxınlaşdıqca, alov yüksəlirdi. On dörd gecəlik ayın üzünə oxşayırdı. Qayıtmaq istədi, ancaq ayaqları sözünə baxmadı, alova tərəf getməyə davam etdilər. Yaxınlaşanda Yusifi tanıdı: gülürdü. Ürək oxşayan səsiylə: "Qorxmayın! Mənə tərəf gəlin, Muradımı görüm. Məni unutmasın" – dedi. "Yusif" deyən kimi parlaq üzü qaranlıqda əridi.

"Bismillah"la oyandı, Muradın balaca bədənini yorğanın üstündən sığalladı.

– Qalx, oğlum.

Qaranlıqda Murad gözlərini ovuşdururdu.

Fadimə bacı əlinin köməyi ilə kibriti tapıb şamı yandırdı. Yatağın altında kəsəri axtaranda Murad təzə paltarlarını geyindi. Kəsəri tapdı, qatranları nazik-nazik böldü, uzunasına alışdırdı və Muradın əlini ovcuna aldı.

– Haydı, oğlum, atanın məzarına gedək.

Yüngül meh qatranın alovunu uzadırdı. Fadimə bacı ovcundakı əldən Muradın titrədiyini hiss etdi. Ona da ürpəşmə gəlmişdi.

– Qorxma, oğlum.

– Niyə qorxum? Orda atam yatır.

Fadimə bacı taxta qapını açanda yüngül qıcırtı qaranlıqda səs-küy saldı. Məzarların arası ilə yeridilər. Burda əsən külək, sanki yad iqlimlərdən qopub gəlirdi. Alov əlinə yaxınlaşdıqca yeni qatran yandırır, azalanı tələsik yelləyərək söndürüb ayağının altında əzirdi. Söyüd ağacının dibinə çatıb qəbirin baş tərəfinə keçdilər. Fadimə bacı bir əliylə torpağı oxşamağa başladı, şirin bir istiliyin ürəyinə dolduğunu hiss etdi. Murad burnunu çəkirdi. Fadimə bacı o biri əlindəki alovu yuxarıya qaldıraraq göz yaşlarını Muraddan gizlətməyə çalışırdı. Bildiyi duaları oxuduqdan sonra az da olsa, rahatladı.

– Atanı unutma, oğlum.

– Baş üstə, ana.

Qalxdılar. Havada səhərin ilk işıqları görünürdü. Qarşılarını görə bildiklərindən Fadimə bacı çırağı söndürdü.

Fadimə bacı tövlədən çıxardığı camışların üstündəki gübrələri təmizləyərkən Molla İbrahimin Süleymanı gəldi. Muradın torbalarını, Süleymanın yatacağını arabaya yüklədilər. Fadimə bacı ilə Murad yan-yana oturdu. Süleyman dəyənəyi əlinə aldı, “Haydi, balam” deyərək atları dəhmərlədi.

Fadimə bacının ruhunda iki cür fırtına əsirdi. Murad oxuyacağı üçün sevinirdi, həsrətinə dözə bilməyəcəyindən də

qorxurdu. Gözucuyla oğlunu süzürdü. Təzə paltarı ona yaraşırdı, amma təəssüf ki, boynu bükük idi. Gözlərini ondan çəkə bilmirdi.

* * *

Sübh namazına qalxmayan Molla İbrahim qapının qarşısına çıxardığı kətildə oturmuş, qollarını çırmalayıb, günəşin çıxmağını gözləyərək düşünürdü. "Yuxu idimi?!" Başını yelləyir, "Yox, canım, oyanmışdım" – deyirdi. Onun bu halı bağçada olan Veysəlin diqqətini çəkdi.

– Salam-əleyküm, İbrahim əmi.

Molla İbrahim ona tərəf çevrildi, başıyla salam verdi.

– Fikirlisən, xeyirdimi?

– Xeyirdi, Veysəl, sabaha yaxın su tökməyə çölə çıxmışdım. Qəbiristanlıqda bir alov gördüm. Atəş gah böyüyüb, gah da kiçilirdi. Diqqətlə baxdım: söyüdün altında gah yüksəlir, gah enirdi. Qorxdum. Nə də olsa, insanoğluyuq. Oxuyaraq evə girdim. Belə başa düşdüm ki, Yusifun qəbrinə nur enmişdi.

– Allah, allah, İbrahim əmi!

– Eh, Veysəl, kimin nə olduğu bilinməz. Kasıbdı, amma əliaçıq idi, təmiz ürəkliydi. İbadətini də eləyərdi. Öləndə də belə, oğlunun oxumasını fikirləşirdi. Bu Məhəmməd ümmətinə xidmət deyilmi? Nur onun qəbrinə enməyəndə, kimin qəbrinə enəcək?

Molla İbrahimin sözləri tezliklə kəndə yayıldı. Başqa görənlər də çıxdı. Kənddəki söz-söhbətlər zühur edən nurun ətrafında fırlanırdı, hamı bu nuru xəyal edirdi.

* * *

Tezdən məktəbin həyəti qələbəlikdi. Getdikcə adam çoxalırdı. Yolda bir maşın dayanan kimi baxışlarını o tərəfə çevirərək düşənin kim olduğunu bilmək istəyirdilər. Yaxınları qaçır, sevinc dolu qışqırıqlarla bir-birilə qucaqlaşırdılar.

Otuz yaşlarında olan, ortaboylu, qaraqaşlı, gülərüzlü Emin müəllim məktəbin həyətinə gələn kimi keçmiş şagirdləri o saat ətrafına yığışdılar. Təzə şagirdlərsə durduqları yerlərdə kölgə kimi səssiz idilər, amma ürəkləri həyəcanla dolub-daşırdı. Emin müəllim gülümsəyəndə süd kimi ağ dişləri görünürdü. Baxışlarını şagirdlərində gəzdirib tək-tək hal-əhvallarını soruşurdu; sual verdiyi şagird başını önünə əyərək, ancaq eşidilə bilən sözlərlə hörmətini göstərirdi. Aralarında olan azacıq söhbətdən sonra:

– Hə, uşaqlar, siz danışın, – dedi.

Bir azdan zəng vuruldu. Pilləkənlərin başında direktor köməkçisi göründü. Qolları qoynunda, sıraya düzülən şagirdlərə baxırdı. Səssizlik içində və sürətlə siniflər yerlərini alır, boy sırasını da gözdən qaçırtmırdılar. Siniflər üç-üç sıraya düzüldülər, yalnız təzə şagirdlər səliqəsiz şəkildə dayanmışdılar. Direktor köməkçisi pilləkənləri düşüb yanlarına gəldi. Qısaboyluları qabağa gətirdi; sıralamağa başladı, çiyninə toxunduğu şagird bir daha yerindən tərpənmirdi.

Pilləkənlərin başında müəllimlər yığışmışdı, direktor da aralarında idi. Direktor köməkçisi yuxarı sinifdən bir şagirdə bayrağı çəkməsini tapşırdı. Qalın səslə:

– Hazır ol! – dedi

Gözlərini gəzdirdi: tərpənən yox idi.

– İstiqlal Marşını oxuyacağıq. Başladıq! “Qorxma!..”

Ürəklərdən coşquyla yüksələn səslər İmam-Xətib məktəbinin divarlarında əks-səda verib Halicə tərəf süzülürdü. Gənc üzlər qızarır, boğaz damarları şişir, müqəddəslərin əbədi olaraq bu torpaqlarda sönməyəcəyini sirli maviliyə – səmaya qışqırarkən, göyün bəzəyi ay-ulduz insanlığı salamlayaraq yüksəlirdi.

Direktorköməkçisi:

– Direktor bəyimizin sözü var, – dedi.

Ağsaçlı direktorun səsi məktəbin həyətinə hakim oldu.

– Başlayan yeni məktəb ilimizin kollektivimizə və millətimizə xeyirli olmasını diləyirəm. Sevimli gənclər, böyük mübarizənizin hazırlıqlarını burada edəcəksiz. Elmlə, irfanla beyinlərinizə tükənməz aydınlıqlar dolacaq. Qızıl üzüyün qırılmaz bir hissəsi olaraq, ölkəmizin uzaq əyalətlərində tər tökən qardaşlarınızın sıralarına qoşulacaqsınız. Buradan aldığınız biliklər həyatda həm işığınız, həm də sərmayəniz olacaq. Məktəbinizi bu gözlə görün, bu sevgiylə sevin, müəllimlərinizə hörmətiniz bu duyğu ilə olsun. Əli öpüləsi müəllimlər həyatın nemətlərinə üz çevirib sizə yönəldilər. Bura eyni zamanda sevgi yuvasıdır. Analarınızın, atalarınızın yoxluğu ilə çırpınan ürəkləriniz müəllimlərinizin sevgilərində sakitliyə qovuşacaq. Boranlı, fırtınalı həyatda tezliklə ayaqda durmaq, yaşaya bilmək burada bir-birinizə yaxşıca bağlanmağınıza bağlıdır. Bu da ancaq bir-birinizi sevməklə mümkündür. Böyük

çətinliklərə sinə gərərək, izdihamın iniltisini dindirən neçə nəfərsiniz? Bir-birinizi fəda etməyin, özünüzü fəda edin. Qaranlıqlar işığınızda boğulsun!

Gözlərində diri bir ruh alovlanmışdı. Çuxura düşmüş gözlərini dəsmalıyla quruladı. Həyəcanını gizlətməyə çalışaraq davam etdi:

– Anadolum! Bu günün qaranlıqlar diyarı… Nemətlərinlə böyüdük; təəssüf ki, sənə bir şey verə bilmədik. Aclar, yoxsullar məmləkəti… Qarşımda artıb sıralanan səfi görərək, ölkəm, sənə cəsarətlə qışqırıram: ölməyəcəksən! Böyüyəcəksən! Bağrından qopan Mövlanələrin, Yunislərin insanlığa yenə yol göstərəcək.

Astaca əyilərək bir addım geri çəkildi. Direktor köməkçisi yuxarı sinif şagirdlərinə:

– Birinci siz, – dedi.

Şagirdlər səssizcə məktəbə daxil oldular. Çöldən içəriyə yalnız ayaq səsləri gəlirdi. Təzə şagirdlərə sıra gəldikdə, direktor köməkçisi qarşılarına keçdi. Zala daxil olan kimi cibindən çıxardığı siyahını oxuyaraq onları siniflərə böldü.

Ürəkləri şübhə ilə dolu idi. Sinifdə səs yoxdu. Gözucu bir-birini süzür, qorxaq baxışlarını aşağı əyirdilər.

Sinifdə ayaq səsləri canlandı. Qapıdan Emin müəllim girdi. Gülümsəyərək baxışlarını sinifdə gəzdirdi; hamısı ayaq üstdə idi.

– Sabahınız xeyir, uşaqlar.

– Sağ ol.

– Siz də sağ olun. Oturun.

Sinif səssizliyə qərq oldu. Emin müəllim kresloya oturdu.

Gülümsəyən gözlərini şagirdlərdə bir-bir gəzdirərkən öz uşaqlığını, bu sıralara ilk gəlişini, ürkək hərəkətlərini xatırladı.

– Çoxunuz Anadolunun müxtəlif yerlərindən gəlmisiniz, demək olar ki, hamınız ilk dəfədir evinizdən ayrı düşürsünüz. Ata-analarınız, qardaşlarınız üçün indidən darıxırsınız. Kəndiniz, qonşularınız, mal-qaranız gözlərinizin qarşısındadır. Necə kədərləndiyinizi bilirəm: mən də sizin kimi idim. Bu məktəbə ilk gəlişimi, bu sıralara ilk oturuşumu xatırlayıram; gözlərimin qarşısında anam, yaxınlarım, kənd canlanır, heç cürə yadımdan çıxmırdı. Dözə bilməyəcəyimi düşünürdüm. İlk günlər mənim üçün çox çətin olmuşdu, amma qısa vaxtda məktəbimə, müəllimlərimə, dostlarıma öyrəşdim və onları çox sevdim. Gözümü açıb-yumunca ilin axırı gəlib çatdı. Kəndə qayıdanda qoyub gəldiyim hamını, hər şeyi yerində gördüm. Buradakı narahatlıqlarımın əbəs olduğunu başa düşdüm. Yay aylarının tez bitməsini, məktəbi, dostlarımla görüşməyi istəyirdim. Məktəbimiz ikinci il mənə daha isti gəldi və günlər sürətləndi… Hər ötən il məktəbimizə daha çox bağlanır, hər il mənim üçün daha gözəl olurdu. Və nəhayət, bu məktəbi bitirdim. İllərcə darıxdım. Buraya müəllim olaraq təyin olunmaqla məktəbimə qovuşdum, amma o illərin həsrətindəyəm. İndi hamınızın içində qorxu var: görən, bir şey olmadı ki? Atam, qardaşlarım necədi? Heç narahat olmayın, hamısı qoyub gəldiyiniz kimi yaxşıdılar. Hər şeyin başlanğıcı çətindir, hələ ayrılığın ilk günləri çox dözülməzdir.

Emin müəllimin ağzından çıxan bu sözlər uşaqlara rahatlıq

gətirir, özlərini toplamalarına kömək edirdi. Murad əlini gicgahına dayayıb, gözlərini müəllliminə zilləmişdi.

Şübhələrlə dolu ilk günü dərindən yaşayaraq düşünürdülər: "Görən, necə bir müəllim gələcək?" sualı ilə ürəkləri döyünürdü. Müəllim sinfə daxil olan kimi, onu ürkək baxışlarla süzür, dəqiqələr irəlilədikcə öyrəşirdilər. Hər dərsin bitməsi ilə, elə bil, dünya dəyişirdi.

Səhərin son dərsinin bitmə zəngi səslənən kimi müəllim:

– Siz təzəsiz, – dedi, – Yeməkxananı tanımaya bilərsiniz. Digər şagirdlərin ardınca gedin.

* * *

İzdiham səssizcə pilləkənlərdən aşağı axırdı. Murad da aralarına qoşuldu. Qorxurdu: belə bir kütlənin içində yeməyə, yaşamaya öyrəşməmişdi. Necə bacaracaqdı?! Birdən üstünə dağıdardısa?! Hər addımı onu həyəcanlandırırdı. Bir an içindən geriyə qayıtmaq keçdi. Acmışdı, hara gedəcəkdi?! Yeməkxanaya girdi. Masalar düzülmüşdü: ağ süfrələrin üzərindəki boşqablar, çəngəllər, bıçaqlar tər-təmiz idi. Şagirdlər sıra ilə yerlərinə əyləşdilər; bir masa dolduqdan sonra ikinci masada yerlərini almağa başladılar. Qapının kənarındakı beton dirəyin dibində dayanan Murad titrəyirdi; sırada dayanmağa utanmışdı. Ürəyində, "Deməli, belə olacaq" – deyirdi; təəssüf ki, özünü heç cürə sıraya sala bilmirdi. Gözləri bir anlıq yaşla doldu. Çölə çıxmağı düşünsə də, bacara bilmədi. Emin müəllim gülərək yanına gəldi.

– Vay, balaca, adın nədir?

Üzü qızardı, ağlamsınaraq kövrək bir səslə:

– Murad, – dedi.

Murad başını aşağı əydi. Emin müəllim saçlarını oxşayanda əlinin içində kiçik bir ürəyin çırpıntısını hiss edirdi. Əlindən tutanda yuxarı sinifdəki şagirdlərin birləşdiyi masada boş bir oturacaq gördü. Emin müəllim gələndə masadakı şagirdlər ayağa qalxdılar.

– Məhmət, Murad sənə əmanətdir. Hər yeməkdə yanına alacaqsan. Bir ehtiyacı olarsa, maraqlanacaqsan. Ehtiyac olarsa, məni də xəbərdar edəcəksən.

– Baş üstə.

Emin müəllim Muradın qoltuqlarının altından tutub oturacağa oturtdu və getdi. Başını əyən Murad qulaqlarına qədər qızarmışdı. Məhmət ona tərəf əyildi.

– Murad, haralısan?

Başını qaldırmadan:

– Təpəköydən, – dedi.

– Atanın adı nədir?

– Atam yoxdu.

– Nə oldu atana?

– Ölüb.

– Allah rəhmət eləsin! Yenə də bir adı vardı, yəqin?!

– Çoluğun Yusif.

Masalardan qaşıq, boşqab səsləri gəlirdi. Muradın həyəcanı yavaş-yavaş ötürdü. Məhmət çömçə ilə şorbanı boşqablara çəkdi.

– Hə, Murad, “Bismillah” deyib başlayaq.

Murada elə gəlirdi ki, hamının nəzəri ondadı. Qaşığını əlinə alanda birtəhər oldu; şorba qaşığından masaya dağılanda nə edəcəyini bilməyərək donub qaldı. Məhmət gülümsədi.

– Fikir eləmə, Murad, biz balaca olanda nələr etmirdik… İndi də dağıdırıq. Sən tərbiyəli, diqqətli uşaqsan, qısa vaxtda necə öyrəşdiyini görəcəksən.

Məhmətin sözlərindən Muradın gərginliyi azaldı. Şorbanı üfürərək içirdi. Masanın ab-havasına öyrəşir, danışanlara qulaq asırdı. Növbə çərəzlərə çatmışdı. Məhmət yeməkləri boşqablara bölüşdürdü. Kəndlərində belə yeməyə az rast gəlinirdi. Tulumba şirniyyatını heç vaxt görməmişdi. Məhmət qardaşını gözlədi. Çəngəlin ucuyla bölür, bölünən hissəni çəngəli ilə götürürdü. Murad da eynisini etdi. Məhmət şirniyyatı bitirən kimi bir stəkan su içdi. Murad da içdi. Məhmət masadakılara “Nuş olsun” – deyərək qalxdı.

– Gedək, Murad.

Murad Məhmətin arxasınca gedirdi. Yuyunma yerinə gəldilər. Əllərini sabunla yuyub quruladıqdan sonra çölə çıxdılar.

* * *

Şagirdlərin əksəriyyəti kənddən idi. Bu ərəfələr İstanbuldan və başqa şəhərlərdən gələnlərin sayı azalmışdı. Çoxu kimi o da məktəbə öyrəşməmişdi. Bir səhv edərsə, məktəbdən qovulacağını düşünürdü. Hara gedərdi? Molla İbrahimin Süleymanı bura gələndən ona bir daha baş çəkməmişdi. Sağollaşanda, “Səni tez-tez yoxlayacam, atamın əmridir” –

demişdi, amma o gündən bəri bir dəfə də görünməmişdi. Bir də pulunu itirərdisə, halı necə olardı? Yavaşca əlini sinəsindən qabırğasına doğru sürüşdürdü, pencəyinin astarındakı cibinə barmaqlarının ucuyla toxundu. “Oldu” deyərək rahatca nəfəs aldı və içinə şirin istilik yayıldı. Fadimə bacı Muradın cibinə xərcliyini qoymuş, ayrıca əlli lirə də bir bezə bürüyüb iç cibinə tikmişdi. “Heç vaxt buna əl vurma; pulun qutaranda, məktub yaz, göndərərəm. Nə olar, nə olmaz. Yollar qar olar və ya pulunu itirə bilərsən, onda heç kimin görmədiyi yerdə bu cibi sökərsən. Pulu xırdalayandan sonra da bir qismini yenə ora qoyarsan” – deyə bərk-bərk tapşırmışdı. Murad gündə bir neçə dəfə heç kimsəyə bildirmədən iç cibini yoxlayıb rahatlaşırdı.

Yatağa girəndə, sanki anasıyla göz-gözə gəldi: dərin baxışları məyus halda ürəyinə dolurdu. Göz yaşları axmağa başladı. Hıçqırdıqca çarpayı cırıldayırdı. Axşam vaxtıydı; Qarabaş çöldə yallanırdı… Sonra özünə gəldi. Tərləmişdi; yorğanı üstündən atdı. Məhmət qardaşını düşünərək rahat olurdu. Qısa vaxtda ona öyrəşmişdi… Necə də yaxşı insandı! Səssiz-səssiz içindən gələn hıçqırıqları boğduğunu hiss etdi. Yatağında dikəldi; yanındakı çarpayıya gözlərini zillədi. Boğuq bir hıçqırıq sinəsini deşirdi. Yorğanın altına girən kimi göz yaşları yenə axmağa başladı.

* * *

– Oyanın, saat yeddi olur.

# Конец ознакомительного фрагмента.

Текст предоставлен ООО «ЛитРес».

Прочитайте эту книгу целиком, купив полную легальную версию на ЛитРес.

Безопасно оплатить книгу можно банковской картой Visa, MasterCard, Maestro, со счета мобильного телефона, с платежного терминала, в салоне МТС или Связной, через PayPal, WebMoney, Яндекс.Деньги, QIWI Кошелек, бонусными картами или другим удобным Вам способом.